

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 84 (23.726)

*8 may 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Bu il iyunun 11-dən iyulun 11-dək keçiriləcək AVRO-2020-nin Kubok turu çərçivəsində Avropa çempionatının kuboku Bakıya gətirilib. Mayın 7-dən 9-dək Bakıda nümayiş olunacaq Avropa çempionatının kuboku Prezident İlham Əliyevə təqdim edilib.

UEFA-nın ilk baş katibi olmuş, Avropa çempionatının keçirilməsi təklifini irəli sürmüş şəxsin şərəfinə "Anri Delone kuboku" da adlandırılan bu kubok turnirin final oyununda qalib gələn komandaya təqdim olunacaq. Kubok Bakıdan sonra Danimarkanın paytaxtı Kopenhagenə aparılacaq.

Xatırladaq ki, Avropa çempionatının 60 illik yubileyi münasibətilə AVRO-2020-nin oyunları müxtəlif ölkələrdə təşkil olunacaq. A qrupunun 3 oyunu və 1/4 final mərhələsinin 1 qarşılaşması Bakı Olimpiya Stadionunda keçiriləcək.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı bir qrup aparıcı incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Prezident mükafatlarına layiq görülənlər arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır.

**Alışova Şölə Qasım qızı**
**Babayeva Sevinc Məmmədəli qızı**
**Əliyeva Hüsniyyə Səfər qızı**
**Hümbətova Ülviyyə Cavanşir qızı**
**İsmayılov Samir Süleyman oğlu**
**Quliyev Nihat Heydər oğlu**
**Mahmudov Rövşən Oqtay oğlu**
**Məmmədov Nüsrət Cəfər oğlu**
**Məmmədov Sabir Duman oğlu**
**Sultanov Neymət İslam oğlu**

# Vətən qarşısında xidməti olanlara avtomobillər təqdim edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Əlimizdən gələni edəcəyik ki, müharibədən əziyyət çəkmiş, öz sağlamlığını, yaxınlarını itirmiş insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunsun".*** Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da bu kateqoriyadan olan insanlar diqqət mərkəzində saxlanılır. Müharibə veteranları, şəhid ailələri üçün mənzillər tikilir, sağlamlıq imkanları məhdud şəxslərə minik avtomobilləri verilir.

Mayın 7-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, hərbi xidmət vəzifələrinin yerinə yetirməklə əlaqədar sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, eləcə də Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 1 nəfərə "Xəzər-LX" markalı minik avtomobilləri təqdim edilmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinə xüsusi qayğı ilə yanaşılır. Şəhid ailələrinə və müharibə veteranlarına hərtərəfli dövlət qayğısı göstərilir, bu sahədə xidmətlərin həcmi və keyfiyyəti ildən-ilə artırılır, onların müalicəsi üçün muxtar respublikada fəaliyyət göstərən reabilitasiya müəssisələri müasir avadanlıqlarla təchiz olunur. Müvafiq kateqoriyadan olan vətəndaşlar müxtəlif sosial proqramlara, aktiv məşğulluq tədbirlərinə cəlb edilir, mənzil və avtomobillərlə təmin olunurlar. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanlarıdır"*** fikrini xatırladaraq demişdir ki, xalqımızın vətənpərvərliyi özünü İkinci Qarabağ müharibəsində bir daha göstərdi. Azərbaycan Respublikası Prezidentinin qətiyyəti, Azərbaycan Ordusunun gücü və Azərbaycan xalqının vətənpərvərliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu gün həmin torpaqlarda bərpa işləri həyata keçirilir.

"Vətənpərvərlik olan yerdə ölkə inkişaf edir, müstəqillik qorunur, dövlət-xalq birliyi yaranır", – deyən Ali Məclisin Sədri vurğulamışdır ki, Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda 10 minlərlə könüllünün iştirakı və ordumuzla həmrəylik nümayiş etdirməsi bu birliyin nəticəsidir. Vətənpərvərlik nümunəsi göstərərək xidməti vəzifələrini layiqincə yerinə yetirmiş insanlar isə hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Avtomobillərin təqdim olunması bu kateqoriyadan olan şəxslərin həyatına rahatlıq gətirəcəkdir. Dövlətin qayğısı və sizin vətənpərvərliyiniz gənclərimizə örnəkdir. Bu da onu göstərir ki, hər bir gənc, hər bir vətəndaş öz ölkəsinə xidmət etməli, vətənpərvər olmalıdır.

Ali Məclisin Sədri avtomobillə təmin olunanlara Vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə təşəkkürünü bildirmiş, qarşıdan gələn 9 May – Qələbə Günü, ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü və Ramazan bayramı münasibətilə təbrik etmiş, avtomobillərin açarlarını təqdim etmişdir.

Avtomobillə təmin olunanlar adından minnətdarlıq edən Naib Abbasov demişdir: "Bu gün muxtar respublikada vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Naxçıvanda sosial qayğıya ehtiyacı olan vətəndaşların sosial məsələlərinin həlli daim diqqətdə saxlanılır, vaxtaşırı müalicələrimiz üçün hərtərəfli şərait yaradılır. Mən ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyin və Ali Hərbi Məktəbin məzunu, Azərbaycan Ordusunun 100 illiyi münasibətilə keçirilən tarixi paradın iştirakçısıyam. Hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığımı qismən itirsəm də, bu gün gördüklərim və yaşadıqlarım məni çox qürurlandırır. Ordumuzun qısa müddətdə torpaqlarımızı düşməndən azad etməsi, dövlətimiz tərəfindən müharibə iştirakçılarına göstərilən dəstək və qayğı ölkəmizdə olan dövlət-xalq-ordu birliyinin ifadəsidir".

Qurban Yolçuyev və Nadir Məmmədov ailə üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişlər ki, 2005 və 2019-cu illərdə mənzillə təmin olunmuşuq. Bu gün – bayramlar ərəfəsində avtomobillərin verilməsi isə bizə ikiqat sevinc hissi yaşatdı. Bütün bunlar dövlətimizin vətəndaşına göstərdiyi diqqətin təzahürüdür.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikada ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə tədbirlər təşkil edilib



Muxtar respublikada ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü silsilə tədbirlərlə qeyd olunur.

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatı ilə birgə "Heydər Əliyev siyasi kursu müstəqil Azərbaycanın dövlətçilik ideologiyasıdır" mövzusunda elmi konfrans keçirilib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə təşkil edilən tədbirdə ilk öncə ali təhsil ocağının İncəsənət fakültəsində nümayiş olunan sərgiyə baxış olub. Konfransda görkəmli dövlət xadimi ilə bağlı videoçarx göstərilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, müstəqil Azərbaycan ulu öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının ən layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir. Heydər Əliyev siyasətinə sədaqəti, qətiyyətli və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın müzəffər Ordusu bizə qələbə sevincini yaşatdı.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov qeyd edib ki, müasir Azərbaycan dövlətinin yaradılması, müstəqilliyin qorunub saxlanılması, milli dövlətçilik ənənələrinin bərpa edilməsi ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətidir. Ulu öndər lideri olduğu partiyanın sıralarında olmağı milli dövləçiliyə xidmət etməyin əsl nümunəsi sayır və gələcək nəsli əsl Azərbaycan vətəndaşı kimi tərbiyə edirdi.

Vurğulanıb ki, 2005-ci ilin mart ayında partiyanın III qurultayında YAP-a sədr seçilən Prezident cənab İlham Əliyev bu gün həmin siyasəti uğurla davam etdirir. Hazırda 760 mindən artıq həmfikri özündə birləşdirən partiya xalq, dövlət qarşısındakı xidmətlərini daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.

"Ümummilli lider Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət ideyası" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli müstəqil Azərbaycanda hüquqi islahatların başlanması və böyük bir mərhələnin uğurla başa çatdırılmasının bilavasitə ümummilli liderin adı ilə bağlı olduğunu bildirib.

Tədbirə onlayn qoşulan Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtibar İsmayılovun, Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayevin məruzələri dinlənilib.

Konfransda Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib. Tədbir İncəsənət fakültəsinin hazırladığı konsert proqramı ilə davam edib.

Qeyd edək ki, muxtar respublikanın rayon partiya təşkilatları konfransın gedişini onlayn platforma üzərindən izləyiblər.



AMEA Naxçıvan Bölməsində bu münasibətlə keçirilən "Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi" mövzusunda elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Alim ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyi dövründə ölkənin inkişafından bəhs edib. Dünyanın məşhur dövlət xadimlərinin onun haqqında söylədikləri fikirləri konfrans iştirakçılarının diqqətinə çatdıran bölmə rəhbəri bildirib ki, Heydər Əliyev uzaqgörənliyi, dərin biliyi, yüksək intellektuallığı, əsl natiqlik istedadı, xalqına, Vətəninə bağlılığı ilə seçilən şəxsiyyətdir. Ölkənin ən ağır günlərində ona sahib çıxan dahi rəhbərin seçdiyi düzgün strategiya və gələcəyə hesablanmış inamlı fəaliyyəti bu siyasətin layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün öz labüd bəhrəsini verməkdədir.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir" mövzusunda məruzə edib. Məruzədə qeyd olunub ki, ötən əsrin 90-cı illərinin əvvəllərində parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanı xilas etmək missiyasını dahi şəxsiyyət öz üzərinə götürdü. Bu missiyanın uğurla həyata keçirilməsi nəticəsində Ermənistanın həyata keçirdiyi hərbi təcavüzün qarşısı alındı. 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı.

"Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin xarici siyasəti" mövzusunda məruzə edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev qeyd edib ki, ümummilli liderin həyata keçirdiyi ardıcıl tədbirlər sayəsində ölkəmiz beynəlxalq aləmdəki təcrid vəziyyətindən xilas edildi, xalqımızın üzləşdiyi ağlasığmaz çətinliklər dünya ictimaiyyətinə olduğu kimi çatdırıldı. Vurğulanıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının uğurlu davamı müstəqil dövlətimizin mövqelərinin daha da yüksələcəyindən xəbər verir.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin və institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun məruzələri dinlənilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin konfransı keçirilib



Mayın 7-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin konfransı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 5 illik fəaliyyətinə dair hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və birliyin sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın hesabatı dinlənilmişdir. Qeyd olunmuşdur ki, ötən 5 ildə Rəssamlar Birliyi fəaliyyətini Ali Məclis Sədrinin tapşırıqlarının icrası istiqamətində qurmuş, Bəhruz Kəngərli adına Sərgi Salonunda 234 sərgi – tədbir keçirilmişdir. Bu dövrdə keçirilən "Naxçıvan-bəşəriyyətin beşiyi" üçüncü və dördüncü beynəlxalq rəsm festivallarında 21 ölkədən 100-dən artıq rəssam iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun hamiliyə götürülmüş müvafiq ixtisaslarında gənc rəssamlar ilə mütəmadi olaraq işlər aparılmışdır. Bununla yanaşı, muxtar respublikada fəaliyyət göstərən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində və İncəsənət məktəblərində ardıcıl olaraq birlik üzvləri tərəfindən ustad dərsləri keçilmişdir. 2020-ci ildə birliyin üzvü, sənətşünas alim Nizami Alıyevin "Gəmiqaya qayaüstü rəsmləri" kitabı Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür. Son 5 il ərzində birlik üzvlərindən 6-sı Azərbaycan Rəssamlar İttifaqına, 9 rəssam isə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə üzvlüyə qəbul olunmuşdur. Həmçinin muxtar respublika rəssamları bir çox xarici ölkələrdə keçirilən sərgilərdə, festivallarda və müsabiqələrdə də iştirak etmiş, birliyin nəzdində Gənc Rəssamlar Bölməsi yaradılmışdır. Ülviyyə Həmzəyeva fəaliyyətləri üçün yaradılan şəraitə görə muxtar respublika rəssamları adından Ali Məclis Sədrinə minnətdarlıq etmişdir.

Hesabat məruzəsindən sonra İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

İdarə Heyətinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərov çıxış edərək Həmzəyeva Ülviyyə Tapdıq qızının Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri vəzifəsinə namizədliyini irəli sürmüşlər.

Təklif səsə qoyularaq qəbul olunmuş və Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri seçilmişdir.

Ülviyyə Həmzəyeva minnətdarlıq edərək göstərilən etimadı doğrultmaq üçün səylə çalışacağını bildirmişdir.

Daha sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Nəzarət-Təftiş Komissiyasının tərkibi seçilmiş, konfransın qərarı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransda çıxış edərək demişdir ki, muxtar respublikada rəssamlıq sənətinin inkişafı böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin qayğı və himayəsi sayəsində yaradıcılıq təşkilatlarının fəaliyyəti üçün zəruri tədbirlər görülmüş, onların maddi-texniki bazaları gücləndirilmişdir. 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının yaradılması, 2000-ci ildə həmin təşkilatın bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin formalaşması ilə zəngin keçmişə malik Naxçıvan rəssamlıq məktəbinin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur.

Ümummilli liderin siyasi xəttinin Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsi nəticəsində rəssamlığın və təsviri sənətin inkişafı sahəsində də ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin qayğısı ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Bəhruz Kəngərli adına Sərgi Salonu yeni bina ilə təmin olunmuş, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi, Bəhruz Kəngərli adına Rəssamlar Parkı yaradılmışdır. Bəhruz Kəngərlinin 120, Şamil Qazıyevin 110 illik yubileyləri muxtar respublikada geniş qeyd edilmişdir. Bundan əlavə, Ali Məclisin Sədri Rəssamlar Birliyinin 40 və 50 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalamışdır. Həmçinin muxtar respublikada "Naxçıvan-bəşəriyyətin beşiyi" adlı beynəlxalq rəsm festivalları keçirilmiş, ali təhsil müəssisələrində Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisasları açılmışdır.

Ülvi Hüseynli bildirmişdir ki, Rəssamlar Birliyi bundan sonra da fəaliyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələrinin icrası istiqamətində qurmalıdır.

**"Şərq qapısı"**

# *"Peşə təhsili: reallıqlar və perspektivlər"* mövzusunda seminar



Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarda çıxış edən nazir Rəhman Məmmədov muxtar respublikada təhsilin bütün pillələrinə, eləcə də peşə təhsilinin inkişafına göstərilən dövlət qayğısından və yaradılan şəraitdən danışıb. Bildirib ki, muxtar respublikada peşə təhsilinin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, ixtisaslı kadr hazırlığının təmin olunması diqqət mərkəzində saxlanılır.

Təhsil naziri bildirib ki, hazırda muxtar respublikada 5 peşə təhsili müəssisəsi fəaliyyət göstərir ki, onlardan 4-ü – Naxçıvan, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəbləri və Naxçıvan Şəhər Peşə Liseyi Təhsil Nazirliyinin tabeliyindədir. Peşə təhsilinin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda peşə təhsili müəssisələri əmək bazarının, o cümlədən işəgötürənlərin tələblərinə uyğun ixtisaslar üzrə kadr hazırlığını tam şəkildə həyata keçirə bilir.

Qeyd olunub ki, muxtar respublikada müəyyən dövrləri əhatə edən əhalinin məşğulluğunun artırılması, eləcə də xalçaçılığın, turizmin, arıçılığın inkişafı üzrə Dövlət proqramları və onların uğurla icrası istiqamətində görülən işlər peşə təhsili müəssisələrində müvafiq peşə ixtisaslarının açılmasına və peşə təhsilinə marağın artmasına öz müsbət təsirini göstərmişdir. Belə ki, təkcə ötən il 106 qrup üzrə 1994 nəfər peşə təhsili almış, kursu müvəffəqiyyətlə başa vuran müdavimlər müvafiq sertifikatla təmin olunmuşlar.

Rəhman Məmmədov bildirib ki, muxtar respublikada peşə təhsili müəssisələrində maddi-texniki baza yaxşılaşdırılmış, bununla yanaşı, tədrisin təşkili, peşə məktəblərinin fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsi də diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 19 mart tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilib. Nazir qeyd edib ki, peşə təhsili sahəsində tətbiq edilən yeniliklərdən biri də əmək bazarının dəyişən tələblərinə müvafiq ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi, işaxtaranların tez bir zamanda peşə təhsili qazanıb əmək fəaliyyətinə başlaması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 4 may tarixli Qərarı ilə peşə təhsili kursları üzrə kadr hazırlığı aparılan 47 ixtisasdan 26-nın tədris müddətində dəyişikliklər edilib, yeni tədris planı təsdiq olunub. Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərəcəkdir.

Sonra peşə təhsili müəssisələrinin fəaliyyəti və görülən işlərə dair müzakirələr aparılıb, çıxışlar dinlənilib. Naxçıvan Şəhər Peşə Liseyinin direktoru Sona Əliyeva, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinin direktoru Rəfail Abdullayev, Şərur Texniki Peşə və Sürücülük Məktəbinin direktoru Vəfadar Ələkbərov, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin direktoru Nicat Rzayev çıxış edərək peşə məktəblərində kadr hazırlığı, peşə təhsilinin vəziyyəti ilə bağlı məlumat veriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Gənclər Heydər Əliyev Muzeyində olublar



*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən gənclərin Heydər Əliyev Muzeyinə təşkil olunan ekskursiyasında 30 gənc iştirak edib.*

Zəngin ekspozisiya ilə tanışlıq zamanı tələbələrə məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci mərhələsi, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti zəngin materiallarla nümayiş etdirilir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada ilk dəfə olaraq mühasiblərin müsabiqəsi olub



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindən ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş "Yeni dövrün ən yaxşı mühasibi" müsabiqəsi keçirilib.

Naxçıvan Dövlət Universitetinin dəstəyi ilə Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən müsabiqədə muxtar respublikanın müəssisə və təşkilatlarında çalışan maliyyə-mühasibat işçiləri, ali təhsil müəssisələrinin tələbələri və bu sahəyə marağı olan şəxslər də daxil olmaqla, onlayn qeydiyyatdan keçmiş 45 nəfər iştirak edib.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova çıxış edərək il ərzində mərkəzin qarşısında duran vəzifələrin həyata keçirilməsindən, qazanılan nailiyyətlərdən və tətbiq olunan yeniliklərdən danışıb. Bildirilib ki, keçirilən müsabiqənin əsas məqsədi yeni dövrün tələblərinə cavab verən mühasiblər arasında rəqabətin artırılmasına şərait yaratmaq və əmək bazarında mühasib peşəsinə olan marağı stimullaşdırmaqdan ibarətdir.

Sonra uğurlu mühasib olmağın yollarını əks etdirən stimullaşdırıcı videoçarx nümayiş etdirilib, mühasibat uçotu üzrə test imtahanı keçirilib. 35 sualdan ibarət imtahan tələbə və maliyyə-mühasibat işçilərinin bilik səviyyəsinə uyğun olaraq iki fərqli test nümunəsi əsasında təşkil edilib.

Növbəti gün Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində Maliyyə Tədris Mərkəzinin əməkdaşı Pərviz Babayevin təqdimatında "Mühasib peşəsinin incəlikləri" mövzusunda maarifləndirici seminar keçirilib. Tələbə və mühasiblər arasında ən yüksək nəticə toplayan ilk üç yerin qalibinə diplom, sertifikat və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Yeni vəzifəyə təyin olunmuş dövlət qulluqçularının təntənəli andiçmə mərasimi keçirilib



Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının təntənəli andiçmə mərasimi keçirilib.

Dövlət Bayrağı Muzeyində keçirilən tədbirdə Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılıb, bir sıra dövlət orqanları üzrə səyyar xidmətlər təşkil edilib. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən dövlət qulluğu sahəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Qeyd edilib ki, mərkəz tərəfindən 2011-ci ildən bu günədək dövlət qulluğunda inzibati vəzifələrin tutulması üçün keçirilmiş 20 müsabiqədə 6866 namizəd iştirak edib, onlardan 1365 nəfəri uğur qazanaraq müvafiq vəzifələrə təyin olunub. Muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının, təqribən, 38,4 faizi Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqələrdə uğur qazananlardır.

Bildirilib ki, mərkəz tərəfindən indiyədək müxtəlif dövlət orqanlarına işə qəbul üçün keçirilmiş 97 müsabiqədə 18 minə yaxın namizəd iştirak edib, onlardan 8 mindən çoxu test imtahanlarında müvəffəqiyyət qazanıb.

Gənc dövlət qulluqçusu Ləman Vəliyeva çıxış edərək bu gün muxtar respublikamızda gənclərə yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib. göstərilən qayğının müqabilində səylə çalışaraq muxtar respublikamızın inkişaf və tərəqqisinə öz töhfələrini verəcəklərini qeyd edib.

Daha sonra müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında yeni vəzifələrə təyin olunmuş namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə təntənəli surətdə and içiblər.

Andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edilib, xatirə şəkli çəkdirilib.

Sonra mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

Xatırladaq ki, müsabiqəyə 205 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 571 namizəd sənəd təqdim etmişdi. Müsabiqənin test imtahanları mərhələsində 559 namizəd iştirak edib, 326 namizəd keçid balını toplayıb. Test imtahanında və müsahibə mərhələsində müvəffəqiyyət qazanmış namizədlərdən 84-ü vakant vəzifələrə təyin olunub. Onlardan ilk dəfə dövlət qulluğuna qəbul edilmiş 71 nəfər andiçmə mərasimində iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Naxçıvan göyçəsi – onu necə ixrac edə bilərik

***Naxçıvan meyvələri uzaq keçmişdən dad-tamı ilə seçilərək tanınıb. Bu qədim diyarın iqlimi, torpaqlarının çoxsaylı minerallarla zəngin olması burada əkilib-becərilən kənd təsərrüfatı məhsullarına da böyük təsir göstərib. Elə bu səbəbdəndir ki, muxtar respublikanın aqrar məhsulları hər kəsin marağını özünə cəlb edə bilib. Naxçıvanın özünəməxsus meyvələrindən biri də hazırda tədarükünə başlanılan göyçədir.***





Mütəxəssislərə görə, Naxçıvan göyçəsinin yetişdirilməsi VI-IX əsrlərə gedib çıxır. Alça və albuxara tinglərinə calaq vasitəsilə vurularaq yetişdirilən bu meyvə ilk baxışda alçaya bənzəsə də, ondan fərqi tam yetişənədək yaşıl rəngini özündə qoruyub saxlamasıdır. Sulu, alçadan fərqli olaraq tamı nisbətən şirinə çalan bu meyvədən mürəbbə, kompot, lavaşa və sair də hazırlanır. Təsadüfi deyil ki, son dövrlərdə ənənəvi olaraq təşkil edilən və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də şəxsən iştirak etdiyi göyçə festivalları bu gözəl meyvənin tanıdılmasına, təbliğ olunmasına hərtərəfli şərait yaradıb. Bundan əlavə, hər il yerli torpaq mülkiyyətçiləri tərəfindən adıçəkilən məhsulun paytaxt Bakı şəhərinə göndərilməsi, "Naxçıvan məhsulları" mağazaları tərəfindən satışının təşkil olunması da ölkə daxilində göyçənin tanıdılmasına geniş imkanlar açıb.

Məlum olduğu kimi, son illərdə muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı böyük işlər görülüb, Dövlət proqramları qəbul edilib. Bu sahənin mühüm potensialı nəzərə alınaraq icrası başa çatdırılan müvafiq Dövlət proqramından sonra Ali Məclisin Sədri tərəfindən bu il martın 15-də "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", martın 29-da isə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamlar imzalanıb. Bu proqramların qəbulunda əsas məqsədlərdən biri də muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılmasıdır. Bir az da dəqiqləşdirsək, proqramlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsindən bir sıra nəticələr gözlənilir ki, onlardan da ən əsası ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılmasıdır. Elə biz də bu yazıda Naxçıvanın özünəməxsus meyvəsi olan göyçənin ixrac üçün necə bir məhsul olduğundan bəhs edəcəyik.

Əvvəlcə onu qeyd edək ki, son illərdə meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı vaxtilə qəbul edilmiş Dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada xeyli meyvə bağı salınıb, bu sırada göyçə bağları da istisna deyil. Daxili bazarda (Bakı şəhəri də daxil olmaqla) göyçəyə tələbat ildən-ilə artdığından torpaq mülkiyyətçiləri bu meyvənin istehsalına daha çox maraq göstərirlər. Meyvəyə digər maraq isə onun tədarük dövrünün qısa olmasıdır. Aydın məsələdir ki, bir çox meyvə növlərini ilboyu bazarda tapmaq mümkündür, ancaq elələri də var ki, (göyçə, gilas və sair) onların mövsüm müddəti çox qısadır və bu da təbii olaraq həmin məhsulların qiymətinə təsir edir. Göyçəyə gəldikdə isə bu meyvə orqanizmə saymaqla bitməyən faydaları ilə zəngindir. Susuzluğu yatıran, iştahanı açan, xolesterinin səviyyəsini düşürən, orqanizmdə qan yaradan göyçə, həm də ürək-damar xəstəliklərinə, hipertoniya və qanazlığına çox müsbət təsir göstərir. Təbii ki, göyçə istehsalının artması onun xarici bazarlara ixracını da aktuallaşdırır. Bəs göyçə ixrac məhsulu kimi necə məhsuldur və bu məhsulu xarici bazarlarda necə təqdim edə bilərik?

Suala ümumi cavab versək, deyə bilərik ki, Naxçıvanda yetişdirilən bütün meyvələr dadına görə digərlərindən seçilir və bu da onların xarici bazarlarda rəqabətliliyini artırır. Ancaq burada əsas məqam ondan ibarətdir ki, Naxçıvan meyvələrinin dadı, əsasən, ölkədaxili bazar üçün tanışdır. Buraya qismən də MDB məkanının bazarlarını əlavə edə bilərik (Azərbaycan məhsulu kimi). Ancaq bu gün Naxçıvan məhsullarının yenifəth etdiyi Yaxın Şərq və Mərkəzi Avropa bazarlarını nəzərə alsaq, aqrar məhsullarımızın tanıdılması üçün qarşıda görəcəyimiz işlərin daha çox olacağını indidən düşünməliyik. Konkret olaraq göyçəyə gəldikdə isə heç bir bazarda göyçə ilə rəqabət aparacaq analoji məhsul yoxdur. Amma istisna olaraq bildirək ki, bu gün kənd təsərrüfatı məhsullarının satıldığı xarici bazarlarda vaxtından əvvəl, kal vəziyyətdə qablaşdırılaraq bazara çıxarılan alça məhsulları var. Bu məhsullar böyük alıcı kütləsini cəlb etməsə də, turş meyvə sevənlər və müalicə məqsədilə ona pul xərcləyənlər var. Amma göyçənin damaq ləzzətinə xitab edən alıcı kütləsinin həcmi daha böyükdür. Buna görə də biz bu milli meyvəni brend məhsul olaraq təqdim etməyi bacarmalıyıq. Bir məhsulu brend adlandırmaq isə dillə mümkün deyil. İstənilən brendin arxasında güclü marketinq kommunikasiyası və illərin zəhməti dayanır.

Bu gün aqrar məhsulların bazar təqdimatı ilə məşğul olan marketoloqların gəldiyi ümumi qənaət belədir ki, qablaşdırma məhsula verilən ilk dəyərdir. Digər dəyəri isə alıcı ondan istifadə etdikdə hiss edir. Baxmayaraq ki, bu gün ən məşhur aqrobazarlarda belə, məhsullar həm açıq, həm də qablaşdırılmış şəkildə təqdim olunur. Bunun da özünəməxsus səbəbləri var. Məsələn, bu ilin mart ayında Fransa və Polşanın aqrar məhsullar üzrə mütəxəssislərinin keçirdiyi onlayn brifinqdə (brifinq pandemiya dövründə yaz məhsullarının bazarda təqdimatına həsr olunmuşdu) aqrar məhsulların tam qablaşdırılmamasının bir səbəbi də istehlakçıların məhsula toxunaraq almaq qərarını verməsi ilə bağlı idi. Digər tərəfdən bu gün dünyada yazın ilk meyvə və ya giləmeyvə məhsullarının satışı təcrübəsi də mövcuddur. Təsadüfi deyil ki, gilas mövsümündə qardaş Türkiyə Respublikasında bu məhsulun tədarükçüləri göyçə kimi satış müddəti o qədər də çox olmayan bu giləmeyvəni 6, 8, 10, 14 ədəd böyük və kiçik ölçüdə olmaqla, qablaşdıraraq Latın Amerikası ölkələrinədək ixrac edirlər. Və yaxud bu gün Pribaltika bazarlarında Mərkəzi Avropadan, Qafqaz regionundan gətirilmiş bir sıra meyvələrin kiçik qablaşdırmalarda, bəzi hallarda isə ədədlə satıldığı heç kimə sirr deyil. Yəni demək istədiyimiz odur ki, əgər bu gün Ordubad limonunu kiloqramla satışa çıxarsaq, biz onun satışından çox dəyərini əlindən alacağıq. Bu qeyd etdiklərimizi göyçəyə də aid edə bilərik. Əgər biz Naxçıvan göyçəsini şəffaf plastik qutularda diametrinə görə müxtəlif saylarla və ya kiçik qramlar vasitəsilə bazara təqdim etsək, bu həm də məhsula verilən dəyər olar. Digər tərəfdən əgər bu məhsulu dünyada yeganə olaraq biz yetişdiririksə, deməli, ondan istifadə qaydalarını da biz təlqin etməliyik. Məsələn, bu cür qablaşdırmalara 5, 10 qramlıq polietilen paketlərdə Naxçıvanın 5000 illik qaya duzunun yerləşdirilməsi həm də ənənəvi mədəniyyətin təbliği olmazmı? Bu misalları gətirməkdə məqsədimiz odur ki, ata-babalarımızın yüzilliklərboyu toplayıb bizə çatdırdığı əkinçilik mədəniyyətini, təcrübəni, dəyərləri bu gün dünyaya təqdim etmək imkanı yaranıb. Biz bu dəyəri artıra da, məhv də edə bilərik, yəni hər şey özümüzdən asılıdır.

Sonda onu da vurğulayaq ki, göyçə, həqiqətən, bir meyvə olmaqla yanaşı, həm də Naxçıvanın illərlə yaşadılan dəyəridir. Ona görə dəyəridir ki, Ulu Yaradan onun yalnız burada yetişməsini məsləhət bilib. Təsadüfi deyil ki, Yaradanın bizə bəxş etdiyi bu nemətin ən böyük təbliğatçısı ümummilli liderimiz Heydər Əliyev olub. Kameralar qarşısında jurnalistlərlə söhbətində göyçə haqqında həvəslə məlumat verməsi, təbii ki, ulu öndərin bu meyvəni hər kəsə tanıtdırmaq istəyindən irəli gəlirdi. Və son misal…

*İllərboyu nar, üzüm, ərik davası edən mənfur ermənilər təkcə göyçəni özününküləşdirə bilmədilər. Səbəb isə sadədir: göyçə yalnız Naxçıvanda yetişir!*

**Səbuhi HƏSƏNOV**

## Şahmat üzrə Azərbaycan çempionatı gərgin mübarizələrlə davam edir

*Naxçıvanda təşkil olunan şahmat üzrə kişilər arasında Azərbaycan çempionatında dördüncü tura yekun vurulub. Keçirilən görüşlərdən sonra muxtar respublikamıza gələn şahmatçıların fikirlərini öyrəndik:*

***Nicat ABASOV (qrossmeyster):*** "Pandemiya dövründə Azərbaycan çempionatının belə yüksək səviyyədə təşkili üçün Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına minnətdarlığımı bildirirəm. İlk dəfə Bakıdan kənarda keçirilən çempionat təqdirəlayiqdir, təşkilatçılıq yüksək səviyyədədir, şahmatçıların rahatlığı, oyunlara tam hazırlanması üçün hər bir imkan yaradılıb. Sonuncu dəfə Naxçıvan Beynəlxalq Şahmat Festivalında ikinci olmuşam.



Bu gün isə burada keçirilən Azərbaycanın tarixindəki ən güclü çempionatda bütün oyunlar gərgin və çətin keçir. 8, hətta deyərdim, 9 qrossmeysterin mübarizəsində kimin qalib gələcəyini öncədən demək mümkün deyil. Niyə məhz 9 dedim, çünki Aydın Süleymanlı artıq qrossmeyster normasını yerinə yetirib. İlk turlardan gərgin mübarizə gedir. Birinci turda bir görüşdən başqa, digər oyunların hamısı heç-heçə başa çatmışdı. Bu da rəqiblərin reytinq xallarına baxmayaraq, nə qədər güclü olduğundan xəbər verir. İlk iki turda mən də heç-heçə oynadım. Lakin keçirdiyim son iki görüşdə qalib gəldim. Hələ qarşıda bir neçə çətin tur bizi gözləyir. Həm rəqiblərimə, həm də özümə bu görüşlərdə uğurlar arzulayıram".

***Kənan QARAYEV (beynəlxalq usta):*** "Naxçıvanda ilk dəfə keçirilən Azərbaycan çempionatında iştirak etmək, mübarizə aparmaq sevindiricidir. İstər təşkilatçılıq, istərsə də şahmatçılara olan diqqət yüksək səviyyədədir. Rəqiblər inanılmaz dərəcədə çox güclüdür və əlimdən gələni edirəm ki, onlarla



başa-baş mübarizə aparım. 4 turda 3 heç-heçə etmişəm, yalnız sonuncu turda qrossmeyster Nicat Abasova debutdən yaxşı vəziyyət almayaraq məğlub oldum. Digər üç oyunda beynəlxalq qrossmeysterlərlə xalları yarı böldük. Çalışacağam, digər oyunlarda əlimdən gələni edim və uduzmağıma baxmayaraq, ruhdan düşməyim. Qarşıda çox oyun var, daha güclü oynayıb qələbə uğrunda mübarizə aparacağam, rəqiblərimə oyunumla "baş ağrısı" olmaq istəyirəm".

***Məhəmməd MURADLI (beynəlxalq usta):*** Naxçıvanda keçirilən Azərbaycan çempionatının gərgin mübarizələrlə müşayiət olunacağı öncədən məlum idi. İlk dəfə Bakıdan kənarda təşkil olunan çempionat, açığı, bizlər üçün yad gəlirdi. Lakin bura gəldikdə hər şeyin fərqli olduğunu gördük. Təşkilatçılıq yüksək səviyyədədir. Hətta deyərdim ki, dünyanın ən güclü turniri hesab edilən "Tata Stil turniri"ndən də yaxşı təşkil olunub. Şahmatçıların özlərini rahat hiss etməsi üçün istər oyun zalı, istərsə də oteldə qonaqlama mükəmməl təşkil edilib. Üçüncü turda Abdulla Qədimbəyli üzərində qələbə qazandım. O, Azərbaycanın gənc, istedadlı şahmatçılarından biridir. Hər zaman onunla oyunlarım uğursuz olub – ya heç-heçə etmişəm, ya da məğlub olmuşam. Bu, Abdulla üzərində ilk qələbəmdir. Oyun zamanı hər hansı böyük taktikadan istifadə etmədim, yalnız fiqurlarımı inkişaf etdirdim və rəqibin vaxt azlığından istifadə etdim. Lakin bu hələ üçüncü turdur, qarşıdakı oyunlara daha ciddi hazırlaşmaq və uğurlu seriyamı davam etdirməliyəm. Qarşıdakı yarışlar barədə hələ bir planım yoxdur və özümü yalnız bu yarışa adaptasiya etmişəm. Qarşıda 8 tur var və bundan sonra final mərhələsi başlayacaq. Həmin final mərhələsində hər bir şahmatçı kimi mən də iştirak etmək istəyirəm.



## 1941-1945-ci illər müharibəsi iştirakçılarına və digər müvafiq şəxslərə birdəfəlik maddi yardımın verilməsi təmin olunmuşdur

Bu gün ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindəndir. 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərilir, onların sosial təminatı daha da yaxşılaşdırılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə, orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il 29 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır.

Sərəncamın icrası muxtar respublikada operativ qaydada təmin edilmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları tərəfindən birdəfəlik maddi yardımın şamil olunduğu şəxslərə çatdırılması məqsədilə 345 min 750 manat vəsait həmin şəxslərin bank hesablarına köçürülmüşdür.

Qeyd edək ki, muxtar respublikada birdəfəlik maddi yardımın verilməsi bu qəbildən olan 450 nəfərə şamil olunmuşdur. 11 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1500 manat, 439 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə isə 750 manat məbləğində birdəfəlik maddi yardım ödənilmişdir.

Xalqımızın fəxri olan 1941-1945-ci illər müharibəsi veteranlarının qəhrəmanlığı ehtiramla xatırlanır, şərəfli döyüş yolu keçmiş soydaşlarımızın şücaətləri, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətləri unudulmur. Onların qəhrəmanlıq göstərdiyi döyüş yolu gənc nəslin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsində mühüm amilə çevrilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Çempionatda iki şahmatçı liderdir

Naxçıvan Muxtar Respublikasında ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasındakı Azərbaycan çempionatı davam edir. Ötən gün çempionatda 4-cü turun oyunları keçirilib.

Bu turda çempionatın bir nömrəli reytinqli şahmatçısı qrossmeyster Nicat Abasovla (2665) beynəlxalq usta Kənan Qarayev (2331) üz-üzə gəliblər. Daha üstün oyun sərgiləyən Nicat növbəti bir xalı aktivinə yazıb. Qrossmeyster Vüqar Əsədli (2572) isə qrossmeyster Urfan Sevdimalıyevdən (2369) güclü olub. Maraqla gözlənilən digər görüşdə qrossmeyster Eltac Səfərli (2598) qrossmeyster Misrətdin İsgəndərovla (2535) xalları yarı bölüb. Bu, Misrətdinin ardıcıl 4-cü heç-heçəsidir. Beynəlxalq usta Məhəmməd Muradlı (2449) ilə beynəlxalq usta Aydın Süleymanlının (2520) da görüşündə eyni nəticə qeydə alınıb. Qrossmeyster Fərid Abbasovla (2528) qrossmeyster Nicat Məmmədovun (2609) görüşü gərgin keçib və sonda qalib gələn tərəf Nicat olub. Qrossmeyster Vasif Durarbəyli (2606) isə beynəlxalq usta Abdulla Qədimbəyli (2470) ilə qarşılaşmada ağ-qara taxtanı "sülh"lə tərk edib.

4 turdan sonra qrossmeyster Nicat Abasov və qrossmeyster Nicat Məmmədov 3 xalla turnir cədvəlinə başçılıq edirlər.

Qeyd edək ki, dairəvi sistem üzrə keçirilən çempionatda 12 zəka sahibi mübarizə aparır və çempionata mayın 18-də yekun vurulacaq.

Bu gün 5-ci turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə



şahidlik edəcəklər:

*Urfan Sevdimalıyev - Aydın Süleymanlı*
*Kənan Qarayev – Vüqar Əsədli*
*Fərid Abbasov – Nicat Abasov*
*Misrətdin İsgəndərov - Nicat Məmmədov*
*Məhəmməd Muradlı - Vasif Durarbəyli*
*Abdulla Qədimbəyli - Eltac Səfərli*

Görüşlər saat 14⁰⁰-da başlayacaq.

**Ceyhun MƏMMƏDOV**

## Bal ətirli söhbətlər

*Baharın gəlişi ilə torpaq oyanıb, təbiət canlanıb. Yazın müjdəçisi dedikdə ağıla ilk gələn qaranquşlar olsa da, bu fəslin sorağını həm də kiçik can-cüssələri ilə çiçəkdən-çiçəyə qonub min bir zəhmətlə bal hazırlayan arılardan da alırıq. Torpaqdan yenicə baş qaldıran çiçəklərin aləmə yaydıqları xoş qoxu qışboyu "evlərindən" bayıra çıxmayan arıları, sanki yeni həyata, təbiətin qoynuna səsləyir. Kiçik olmalarına baxmayaraq, yuvalarında yaratdıqları qayda-qanun, gördükləri iş və ortaya çıxardıqları nəticə onların mükəmməl canlı olduqlarını sübut edir. Bunun nəticəsidir ki, çalışqanlıqları ilə təbiətin əsrarəngiz canlılarından olan arıların və zəhmətsevər insanların birliyindən hər dərdə dərman olan bal ərsəyə gəlir.*



Zəhmətkeş əllərin sorağı ilə yolumuzu bu dəfə Babək rayonunun Cəhri qəsəbəsinə saldıq. Qonağı olduğumuz Əhmədovlar ailəsi 10 ildir ki, arıçılıqla məşğuldur. 95 arı ailəsinə qulluq edən Məhərrəm dayı deyir ki, elə ki arılar qış yuxusundan oyandı, deməli, arıçıların zəhmətli günləri başladı. Arıçılıq xüsusi diqqət tələb edən işdir, hər arı ailəsinə gərək ayrıca qulluq edəsən. Nə qədər yaxşı qulluq olarsa, məhsul da bir o qədər yaxşı olar. İl ərzində arıçılıqda görülən işlər isə 4 dövrə bölünür: erkən yaz, beçə, bal və ya məhsul dövrləri, nəhayət qış dövrü. Qışlama dövrünü yaxşı keçirən, yaxşı qidalanan arı ailəsi ili daha yaxşı yola verir, nisbətən zəif qidalanmış ailələr isə tez xəstəliyə tutulur və böyük qismi tələf olur. Xəstəliyə tutulmuş arılar yuvadan ayrılmazdan əvvəl mütləq müayinə edilməli, zəif düşmüş arı ailələrinin qidalanmaları üçün pətəklərinə ballı çərçivəli şam qoymaq lazımdır. Əgər ehtiyat bal yoxdursa, yem tələbatını şəkər şərbəti ilə də tamamlamaq olar.

Müsahibimiz deyir ki, arıçılıqda məhsul istehsalına müsbət təsir edən əsas amillərdən biri erkən yaz dövründə arı ailələrinə qulluğun düzgün aparılmasıdır. Ona görə də yaz yoxlanışı zamanı arı xəstəliklərinin olub-olmamasına nəzarət etmək lazımdır. Buna diqqət göstərilməməsi arı ailələrinin məhv olmasına gətirib çıxarır və xəstəlik səbəbindən zəifləmiş ailələrdə məhsuldarlıq xeyli aşağı düşür. Xüsusən erkən yazda bir arı ailəsinin həyatda qalması üçün ana arının olması vacibdir. Əgər arılar sürətli bir şəkildə çalışıb sürfəyə çiçək tozu gətirirlərsə, bu, ana arının varlığına işarədir. Yox, əgər arılar çiçək tozu gətirmir və pətəkdən qıraqda gəzirsə, böyük ehtimalla ana arı tələf olub.

Arıçı deyir ki, erkən yaz dövrü başa çatdıqdan sonra may ayından etibarən arıçılıqda "beçə dövrü", "beçə ayı", "pətək ayı" kimi tanınan yeni mərhələ başlayır. Bu aydan etibarən



barən arılar çiçək tozundan (güləm) şirə, nektar gətirməyə başlayır. Təcrübəli arıçılar söyləyir ki, may ayında arılar alaqaranlıqdan hava isinənə qədər güləm, bundan sonra isə şirə gətirir. Bu zaman bütün yuvalarda qızğın iş prosesi gedir. Ana arı dayanmadan yeni pətəklər toxuyur, həmin pətəklərin gözcüklərinə sürfələr qoyur. Bu sürfələrdən yekə gözcüklərdə olanlardan erkək arılar, normal gözcüklərdən isə işçi arılar çıxır. Daha böyük bir neçə gözcüklər də olur ki, bunlardan da ana arılar çıxır. Yeni çıxan ana arılar özü ilə bir dəstə arı götürərək yeşikdən ayrılır ki, buna "beçə" deyirlər. Bir beçə dəstəsində 4-5 ana arı olur. Sonradan arılar seçib birini saxlayır, qalanlarını isə öldürürlər. Yeşikdən çıxan beçə yaxınlıqdakı ağacın, kol-kosun üstünə düşür. Bir-iki saat ərzində beçə tutulub yeşiyə, səbətə salınmazsa, uçub hara gəldi gedəcək. Bəzən də elə olur ki, beçə yaxınlıqda olan arıçıların qoyduğu yeşiyə girib orada özünə məskən salır. Bu zaman da onu pətəklərə (yuvaya) qaytarmaq çətin olur.

Məhərrəm Əhmədov deyir ki, yağıntının bolluğu da beçələməyə təsir göstərir. Bu səbəbdən arıları tez-tez dağlıq ərazilərə – Batabata, Gərməçatağa aparıram. Yağıntılı illərdə gül-çiçək çox olduğu üçün arı üç dəfə beçə verə bilər. Onlar da sırası ilə "şahbeçə", "ortabeçə" və "xorabeçə" adlanır.

Çiçək, sevgi, zəhmət... Bunların birgə vəhdətindən ortaya halal qazanc, ruzi-bərəkət çıxır. Bəli, bunları Cəhri qəsəbəsində söhbətləşdiyim Əhmədovlar ailəsinin timsalında bir daha gördüm.

Yeri gəlmişkən qeyd edək ki, muxtar respublikamızda arıçılığın inkişafında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" əhəmiyyətli rol oynayır. Arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə kreditlər, subsidiyalar, pulsuz dərman preparatları verilir, bu sahə üçün hərtərəfli şərait yaradılır. Buna görə də muxtar respublikamızda bu sahə ilə məşğul olan təsərrüfatların sayı da günü-gündən artır və əhalinin arıçılıq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir. Eyni zamanda hər il muxtar respublikada "Arıçılıq məhsulları – bal" festivalı keçirilir, arıçılara öz məhsullarını satmaq üçün lazımi şərait yaradılır. Adıçəkilən Dövlət proqramı isə arıçılığın inkişafında yeni mərhələ yaradır. İnanırıq ki, yaxın gələcəkdə Naxçıvanın arıçılıq məhsulları xarici bazarlarda da özünə böyük alıcı kütləsi toplayacaq.

**Məcid RƏŞADƏTOĞLU**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 390